

■ Ələddin ƏZİMLİ

## GECƏ DUŞUNCƏLƏR

Otağım zil qaranlıq.
Soyuq.
Gözlərim yumulu,
Oxuyuram düşüncələrimi.
Əl-ayağını yığıb-yığışdırsan
Bir şeir alına bəlkə.
Qəfil başlayır külək.
Kor adamlar sayaq
Toxunur pəncərəmin
Şüşələrinə.

Sonra yol tapıb keçir
Qəfil səsdən,
Qorxudan
Qırılır düşüncələr.
Otağım zil qaranlıq.
Soyuq.
Gözlərim açılı.
Dağılıb düşüncələr.

Gözlərimi yummağa bənddirlər,
Qayıdıb gələcəklər.

## QURU SƏS

Öncə
Gözlərim salamlayardı səni.
Sonra
Səsim,
Sözüm,
Əllərim.
Neçə günlərdi beləydi.
Gün-günə,
Ay-aya qısılıb
Dolmuşdu illərə –
Gözlərin gözümə dolan kimi.

Neçə illərdi beləydi.
Qəfil bir işıq
Qırdı paralelləri.
Günlər,
Aylar
Dağıtdı illəri.
Gözlərimdən
Və əllərimdən öncə
Quru səsim
Salamlayır səni indi.

* * *

Dünya oyandır bizi
Külək
Yarpaqları oynadan kimi
Dünya aldadır bizi
Südəmər cocuq kimi.

## YARPAQ ÖLÜMÜ

Ruhu
Küləklərə qoşular
Vaxtsız ötən yarpağın.
Cəsədi
Düşər açılı əllərinə
Torpağın.

Bir üzü yaşıl,
Bir üzü sarı yarpaq
Üz qoyar torpağın əllərinə,
Yaşıl nəğməsini oxuyar ağac,
Əbədi nurunu çiləyər Günəş,
Nazlanar budaqlar, yarpaqlar.
Torpağın soyuq ovcunda
Soyuyan
Bir üzü yaşıl,
Bir üzü sarı yarpaq.
Gözləyər yuyat suyunu
Payızın ilk yağışını.

## YAĞIŞLI, KÜLƏKLİ GÜNLƏRDƏ

Külək deyil,
Ötənlərimin
İncik, vahiməli ruhudur
Döyəcləyən qapaı-pəncərəmi.

Yağış deyil,
Ötənlərimin
Qəhqəhəli, iniltili
Göz yaşıdır
Çırpılır divarlara.
Özüm də bilmirəm
Nə istəyir
Bu külək,
Bu yağış –
Ötənlərimin ruhu,
Göz yaşı.

* * *

Əl elədi son kərə,
Bir parça işıq kimi
Çırpındı, çırpındı əli.
Dil açdı.
Danışdı əli.
Əl eləyib çağırdım
Tək əlin səsini.
Təkərin səsinə qarışdı
Tək əlin səsi.
Eşidə bilmədim
Çovuyan-çırpınan səsi.

## KƏHƏR AT

Kişnəmə, kəhər at!
Kişnəmə dəli-dəli
Yollar çox uzundur,
Yollar yoracaq səni.
atılacaqlar belinə,
Sürəcəklər sonsuzluğa.
Köpük-köpük tər axacaq
Bədənindən.
Puçur-puçur qan axacaq
cəhəngindən.
Dünya dediyin böyükdür,
Kəhər at!
Nə ucu var, nə bucağı
Tələsmə, Kəhər at!
Kişnəmə dəli-dəli.
Yollar çox uzundur,
Yollar yoracaq səni.

